# «QƏBƏLƏNİN SƏSİ» poeziya buketi

## Vətən

Sən anamın anasısan,
Azərbaycan, elim mənim,
Aya günə ucalırsan,
Xoşbəxt keçən günüm mənim,
* * *
Uğurludur gələcəyin,
Tanrı sənə qoy yar olsun,
Ürəyimin arzusudur,
Sərt qışın da bahar olsun.
* * *
Gözəlləşir hər ğün, hər an,
Şəhərlərin, həm kəndlərin.
Görəndə xoş günlərini,
Qoy xar olsun düşmənlərin.
* * *
Ürəyim sığmır köksümə,
Qüdrətini gördükcə mən,
Adın «Odlar diyarı»dır,
Ucal, ucal, ana Vətən.

**Əlihüseyn ŞƏRİFOV.**





## Ana məhəbbəti

Pəncərə önündə bir səs eşitdim,
Bu səs beşikdəki körpə səsiydi,
Ana körpəsinə layla deyirdi,
Bu onun övlada xoş nəğməsiydi,
* * *
Sən bu beşiyimin ilk çiçəyisən,
Sən mənim könlümün ilk baharısan,
Öyrən gələcəkdə yeri, göyü sən,
Sən xalqın övladı, xalqın varısan.
* * *
Ağlama, can bala, şən böyü, boy at,
Bu azad yurdumun torpaqlarında,
Hər gözəl arzuna, istəyinə çat,
Vətəndir şöhrətin, arzuların da
* * *
Körpə səsin kəsir, anaya baxır,
Onun xoş baxışı sonsuz dəryadır,
Qara gözlərindən işıq, nur axır,
Ananın qəlbini işıqlandırır.
* * *
Körpə qığıldayır, üzdə təbəssüm,
Ana qollarını sevincək açır,
Doğma balasının gələcəyinə,
Şirin laylasıyla xoş ətir saçır.

**Novruz BABAYEV.**

## Unuda bilmirəm...

Olub keçənləri unudaq deyə,
Mənə sifarişlər edirsən niyə?
Razıyam gəl onda qaytar geriyə,
Köksümə tuşlayıb atdığın oxu,
Mən səni unuda bilmirəm axı.

Getmisən, mənimçün ölüm olmusan
Ömrümə min əzab, zülüm olmusan
Bir zaman çiçəyim, gülüm olmusan
İyləyib alardım xoş ətir, qoxu,
Mən səni unuda bilmirəm axı.

Həsəd apardı görənlər bizə
Səssiz dayanardıq durub üz-üzə
Möhkəm sıxılardıq bir-birimizə,
Gətirməzdik dilə nə «hə», nə «yox»u,
Mən səni unuda bilmirəm axı.

Təsəlli verirəm özüm-özümə
Ki, bəxtim gülmədi mənim üzümə
Gəl bax gözlərinə baxan gözümə
Nakam sevgimizdən bir nağıl oxu
Mən səni unuda bilmirəm axı.

Ayrıldı yolumuz çatmamış başa,
Könlümün aynası çırpıldı daşa.
İndi xəyalınla qalmısan, qoşa
Çəkilib bir yolluq gözümdən yuxu,
Mən səni unuda bilmirəm axı

İçə bilməsək də vüsal şərbətin
Vardı xoş anları bu məhəbbətin
Fəryaz o dəmləri, unudar çətin
Çünki, xatirəyə dönübdür çoxu,
Mən səni unuda bilmiirəm axı.

**Fəryaz HƏMİDOV.**

## Bu elə bir sevgidir

*Bu elə bir sevgidir,*
*Hər zaman çiçək açar*
*Fəsilləri dəyişər,*
*Aylar dönər il olar.*
*Bu sevginin zirvəsi*
*Xoşbətlik, sevinc olar.*
*Bu elə bir sevgidir,*
*Həmişə mənimlədir,*
*Gözlərimi qapasam.*
*O mənim könlümdədir.*
*Məni çağırmasa da,*
*Dinib danışmasa da*
*Eşidirəm səsini,*
*O mənim özümdədir.*
*Onunla yaşamışam,*
*İlləri, fəsilləri*
*Bu sevgiylə fəth etdim*
*Mən neçə zirvələri.*
*Bu eşqə mən hər zaman*
*Canı qurban verərəm.*
*Mən onun arxasınca*
*Ölümə də gedərəm.*
*Bu sevgi - ana haqqı,*
*Bu sevgi - Vətən haqqı,*
*Bu sevgi - ilk məhəbbət,*
*Bu sevgi - vicdan,qeyrət*

*Sədiyar SƏFƏRƏLİYEV.*



## Ömrüm, günüm

Mən səni axtardım görə bilmədim,
Qarşıla, gəlmişəm, ay ömrüm günüm,
Sənsiz nə danışdım, nə də dinmədim,
Qarşıla gəlmişəm, ay ömrüm günüm,
Gözlərim arayıb axtarır səni,
Durdumsa qarşında görmədin məni,
Bəlkə gizlədirsən məndən sevgini,
Qarşıla, gəlmişəm, ay ömrüm günüm,
Üşütsə qəlbimi o çöldəki qar,
Kəssə də qarşımı o əğyar, o sar,
Səsimə səs verib hay deyər dağlar,
Qarşıla, gəlmişəm, ay ömrüm günüm.

**Şəhla XƏLİLQIZI.**

## Duyan olsun bir də...

***Baxıram bu dünyanın xəritəsinə, üçdə biri torpaq. Bir damcı qismətimizi gör neçə yerə bölmüşük?..***

***Birdən qəribə bir istək keçdi qəlbimdən. İstədim bu bir parça cansız kağız üzərində yox edim sərhədləri...***

***Qovuşduram Arazımla-Təbrizimi, Şimalımla-Cənubumu, Şərqimlə-Qərbimi... Qovuşduram keçmişimi bu günümə, bu günümü sabahıma. Qovuşduram illərlə həsrət qalmış anaları balalara, balaları analara...***

***İstəmirəm sərhədləri, taleləri, insanları ayıran sərhədləri... kainatın günəşi bir, ayı birdir. Sərhəddi də qoy bir olsun. Su və torpaq sərhəddi. Didişmələr, çəkişmələr, yerli-yersiz giley-güzar incitməsin insanları. İnciməsin bir ürəyin istəyi də. Heç bir gözdən boylanmasın nifrət, kədər...***

***Dünya olsun. Bu dünyanı duyan ürək, bir də MƏHƏBBƏT...***

***Qərənfil DÜNYAMİNQIZI,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü.***



## Üç cümləlik hekayə

Vəzifədən çıxandan sonra bütün dostları, qohumları, badə yoldaşları bir-bir buxarlanırdı. Bir gün onlardan biri ilə təsadüfən rastlaşanda sözarası havaya bir yalan buraxdı ki, bəs iki gündür Yaşıltəbə İdarəsinə Ərazi müavini təyin olunub. Ertəsi gün həyət darvazasının ağzında müxalifətin mitinqindəkindən də çox qohum-əqraba, dost-tanış yığışmışdı.

## Dörd cümləlik hekayə

Baş redaktor ilk cümləni oxuyub dəhşətə gəldi- « milli bəstəkarlıq və ifaçılıq sənətimizin qızıl taclısı nəinki öz yaşıdları və tələbə yoldaşları, ümumən, ölkəmizdə və Qafqazda əvəzolunmaz bir ifaçılıq məktəbinin yaradıcısı, korifey sənətkar kimi tanıdığımız N.N, tamaşaçılarımızın ürəyində özünə əbədi bir məhəbbət qazanıb.»

Daxili telefona gənc əməkdaşı yanına çağırıb yazını geri qaytardı:

- Qoy, bu, hələlik qalsın, sən bir Üzeyir bəy haqqında iki səhifəlik yazı hazırla, növbəti nömrədə dərc edək.

-Müəllim, familyası deyəsən «zadə» ilə bitir hə, onumu deyirsiniz?

## Beş cümləlik hekayə

Çoxdan görmədiyim qələm dostumla yaradıcılıq gecələrinin birində rastlaşanda gözlərimə inanmadım. Xeyli arıqlamış, rəngi saralmış,baxışları sozalmışdı. Sualımı gözləmədən özü güclə eşidiləcək səslə piçıldadı ki, böyrəklərinin ikisi də sıradan çıxıb, dializlə yaşayır.

Sonra da heç vaxt unutmayacağım, kədərini yaşayacağım tərzdə bildirdi ki, yaxın vaxtlarda kəndə yola düşəcək, atası ilə birlikdə, yanaşı məskunlaşacaq.

... Dostumun atası dörd il əvvəl dünyasını dəyişmişdi.

**Akif CABBARLI.**
**AzərbaycanYazıçılar Birliyinin üzvü.**

## Məhəbbət

Dünyanın adicə qayğısı deyil,
Bir qəlbin ötəri duyğusu deyil,
Bir yorğun gözünün yuxusu deyil.
Nədirsə, çox uca hissdir məhəbbət!
* * *
Meyarlar dəyişsə, dəyərlər itsə,
Ömrün bir səfilin günündə bitsə,
Adını aləmdə rüsvay da etsə,
Yenə də demirsən pisdir məhəbbət.
* * *
Tanrıdan buyruqdur, Allahdan əmr,
O daşı yumşaldır, əridir dəmir.
Yüz yaşı olan da gecdir söyləmir,
On yaşlı da demir tezdir məhəbbət!
* * *
Görərsən, zülmətdən keçəsi olsan,
Qayanın bağrını deşəsi olsan,
Qırx ilin külünü eşəsi olsan,
Altından işaran közdür məhəbbət!

**Qərib HÜSEYNOV.**

## Yuxum zay oldu

Əzizim, ömürlük gəlmişdin bizə,
Sevincdən çiçəklər oynayırdılar.
Təbiət özü də gülürdü üzə,
Yarpaqlap, ləçəklər oynayırdılar,
* * *
Yığışıb bir yerə söhbət edirdik,
Hamının dilindən bal tökülürdü,
Zamanın atında kefə gedirdik,
Baxışlar gülürdü, gözlər gülürdü.
* * *
Arzum çin olmuşdu, fərəhlənirdim,
Deyirdim səadət mənə pay oldu.
Nə qüssəm var idi, nə də ki, dərdim,
Heyif! Tez oyandım, yuxum zay oldu.

**Ədalət ƏLİ.**

## Əlindən öpüm

Ana, baxçamızda bir bahar çağı,
Əlinlə əkdiyin cülündən öpüm,
O əllər dərdimin çarəsi olub,
Ana, ver əlini, əlindən öpüm.
O isti nəfəsin, isti qucağın,
Əlini sürütdüyün qabın, qacağın,
O köhnə təndirin, odun-ocağın,
Qarışıb külünə, külündən öpüm,
Ana ver əlini, əlindən öpüm.
Gözlərim dolanda boynunu bükən,
Nəmli gözlərinə çən-duman çökən,
Nigaran qalanda ah-nalə çəkən,
Sənin o yanıqlı dilindən öpüm
Ana ver əlini, əlindən öpüm.
Övladın ömrünə Günəş tək doğan,
Ağrını-acını içində boğan,
Qafarın yolunda vaxtsız ağaran,
Hörüklü saçının dənindən öpüm,
Ana ver əlini, əlindən öpüm.

**Qafar NƏSİBOĞLU.**



## Lətifə

*Mollanın balaca bir oğlu vardı,*
*Oğlunun on-on bir yaşı olardı,*
*İstəyir oğlunu o evləndirsin,*
*Evinə gözəl bir gəlin gətirsin.*
*Bir məclis də qurur, toy da eyləyir,*
*Onun məqsədini heç kəs bilməyir.*
*Soruşurlar ondan gələn qonaqlar;*
*«Sənin ki, ay Molla, bircə oğlun var,*
*Niyə sən oğlunu evləndirirsən?*
*Onun yaşı kiçik, bunu bilirsən.*
*Hələ onun ağlı başında deyil.*
*Axı, o evlənmək yaşında deyil»*
*Molla cavab verir, onlara həmən:*
*«Belə iş görməkdə çox haqlıyam mən,*
*Çoxdan olmalıydı, hələ ba da gec,*
*Ağlı başda olan evlənərmi heç?»*

*Sərdar AĞAYEV.*

## Payız gəlir

Yarpaq budaqdan üzülür,
Torpağa xalı düzülür,
Göylərdən yağış süzülür,
Elimizə payız gəlir.
* * *
Dağlarda duman sürünür,
Zirvələrdə çən görünür,
Göy ağ örpəyə bürünür,
Çölümüzə payız gəlir.
Durnalar uçub gedirlər,
Bu yerləri tərk edirlər,
Qaqqıldaşaraq deyirlər,
Gölümüzə payız gəlir.
* * *
Solub düzlərdə çiçəklər,
Tökülübdür, ağ ləçəklər,
Görünməyir kəpənəklər
Gülümüzə payız gəlir..

**Rəciyyə ŞİRİNOVA,**